*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 6-9* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.6*

# Molla Pənah Vaqif və Vaqif Poeziya Günləri haqqında söz

**İsa Həbibbəyli**
Akademik
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti
E-mail: isa.habibbeyli@science.az

**Annotasiya.** Görkəmli Azərbaycan şairi və tanınmış dövlət xadimi Molla Pənah Vaqifin keşməkeşli həyatı, zəngin yaradıcılığı və dövlətçilik fəaliyyəti həm milli ədəbiyyatın inkişafında, həm də ölkəmizin tarixində xüsusi mərhələ təşkil edir. Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatına novator, daha doğrusu, reformator sənətkar kimi daxil olmuşdur. Məhz Molla Pənah Vaqifin sayəsində Azərbaycan ədəbiyyatında əruz vəznində yaranan çoxəsrlik klassik romantik lirika ənənələrindən yenitipli realist şeirə keçid hadisəsi baş vermişdir. Vaqifin zəngin irsi Azərbaycan ədəbiyyatının vəzn və janr, dil və üslub, bədii təsvir vasitələri baxımından da yeni olub, ədəbiyyat tariximizdə fərqli bir istiqamətin yaradılmasına səbəb olmuşdur.
Molla Pənah Vaqif sənətinə yenidən qayıdış elm və ədəbiyyat sahəsində görkəmli ədəbi şəxsiyyətlərimizin həyatı və yaradıcılığının azərbaycançılıq idealları işığında tədqiq olunmasına Böyük Qayıdış hadisəsidir.
Məqalədə M.P.Vaqifin yaradıcılığı ilə yanaşı, Vaqif Poeziya Günlərinin yenidən öz yurdunda – mədəniyyət paytaxtımız Şuşada, Heydər Əliyev Fondu tərəfindən bərpa olunan Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin önündə keçirilməsindən bəhs olunur.
**Açar sözlər:** Böyük Qayıdış, Molla Pənah Vaqif, Azərbaycan ədəbiyyatı, Vaqif Poeziya Günləri

**Məqalə tarixçəsi:** göndərilib – 12.07.2024; qəbul edilib – 24.07.2024

# Molla Panah Vagif and a word on Vagif's Poetry Days

**Isa Habibbeyli**
Academician
The President of the Azerbaijan National Academy of Sciences
E-mail: isa.habibbeyli@science.az

**Abstract.** The tumultuous life, rich creativity and statehood activity of Molla Panah Vagif, prominent Azerbaijani poet and famous statesman creates a special stage in the development of national literature and in the history of our country. Molla Panah Vagif entered Azerbaijani literature as an innovator, or rather a reformer. Owing to Molla panah Vagif happened a transition from centuries-old classical romantic lyrical traditions to a new type of realistic poetry. Vagif's rich heritage was new in terms of measure, genre, language and style of Azerbaijani literature and means of artistic description and caused to the creation of a different direction in our literary history.
The return to the creativity of Molla Panah Vagif is an event of Great Return to the study of the life and creativity of our outstanding personalities in the field of science and literature in the light of Azerbaijanism ideals.

In the article is dealt with the creativity of Vagif as well as holding the Vagif's Poetry Days again in his homeland - in Shusha, our cultural capital, in front of the museum-mausoleum complex of Molla Panah Vagif, which was reconstructed by the Heydar Aliyev Foundation.
**Keywords:** The Great Return, Molla Panah Vagif, Azerbaijani literature, Vagif's Poetry Days

**Article history:** received – 12.07.2024; accepted − 24.07.2024

## Giriş / *Introduction*

Böyük Azərbaycan şairi Molla Pənah Vaqif (1717-1797) Azərbaycan yazılı ədəbiyyatında hecavəznli şeir məktəbinin və erkən realizm ədəbi cərəyanının banisidir, yaradıcısıdır. O, Azərbaycan ədəbiyyatında klassik romantik lirikadan realist poeziyaya keçid proseslərini başa çatdırmışdır.

Molla Pənah Vaqif ilk dəfə olaraq Azərbaycan coğrafiyasını açıq və geniş şəkildə Azərbaycan ədəbiyyatına gətirmişdir. Onun şeirlərindəki "əcəb seyrangahı" olan Kür qırağı, Qıraqbasan obası, qışlağı toponimləri, "belə gözəl yer, gözəl məkan" təşbehləri ilə tərənnüm olunan təbiət mənzərələri geniş mənada Azərbaycanı ifadə edir.

## Əsas hissə / *Main Part*

*Kür qırağının əcəb seyrəngahı var,*
*Yaşılbaş sonası, hayıf ki, yoxdur!*
*Ucu tər cığalı siyah tellərin*
*Hərdən tamaşası, hayıf ki, yoxdur!*

*Qış günü qışlağı Qıraqbasanın,*
*Gözüdür Aranın, cümlə-cahanın,*
*Belə gözəl yerin, gözəl məkanın,*
*Bir gözəl obası, hayıf ki, yoxdur!*

Göründüyü kimi, Molla Pənah Vaqif Azərbaycan poeziyasında ilk dəfə olaraq "ellər yaraşığı, ölkə gözəli" olan "yaşılbaş sona" obrazını yaratmışdır. Bu, böyük Füzulinin "qönçə ağızlı, sərv boylu, səməni üzlü" gözəlindən fərqli olan, real həyatdan alınmış, xalq bədii təfəkkürü ilə tərənnüm edilən bənzərsiz Azərbaycan gözəlidir. "Yaşılbaş sona" Molla Pənah Vaqifin şeirlərində vəsf edilən Azərbaycan gözəllərinin ümumiləşdirilmiş obrazıdır.

*Bir bölük yaşılbaş sonalar kimi*
*Yığılıb gəlibdir Qazağa qızlar,*
*Ayna qabağında qara qaş ucun,*
*Endirib gətirmiş qulağa qızlar.* [1, s.97]

Azərbaycan yazılı poeziyasında ilk dəfə canlandırılan "yaşılbaş sona" obrazını "Kitabi Dədə Qorqud" eposundakı Burla Xatun və ya Banuçiçək surətləri ilə müqayisə etmək olar.

Molla Pənah Vaqifin yaradıcılığı ilə həyatın və insanın tərənnümündən həyat həqiqətlərinə tənqidi münasibəti ifadə edən şeirlər ədəbiyyatda özünə yer almışdır: "Bayram oldu" şeiri Azərbaycan ədəbiyyatında ilk mükəmməl realist şeirdir. "Bayram oldu" şeirindəki kasıbçılıqdan giley notları erkən realizm ədəbi cərəyanının poetik təzahürləridir. Molla Pənah Vaqifin "Görmədim" müxəmməsi isə Azərbaycan ədəbiyyatında erkən rezlizm ədəbi cərəyanı estetikasının kuliminasiya nöqtəsidir:

*Mən cahan mülkündə, mütləq doğru halət görmədim,*
*Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim,*
*Aşinalar ixtilatında sədaqət görmədim,*
*Biətü iqrarü imanü dəyanət görmədim,*
*Bivəfadan lacərəm təhsili-hacət görmədim.*
[1, s.186]

Molla Pənah Vaqif Azərbaycan xalq dilinin qüdrətini tərənnüm etmişdir. O, xalq danışıq dili ilə yazılı ədəbiyyatın dili arasındakı fərqi aradan qaldırmışdır.

O, küllü Qarabağın ab-həyatından böyük ilhamla söz açmışdır.

Bütün bunlara görə Molla Pənah Vaqifin yaradıcılığı böyük Azərbaycançılıq hadisəsidir.

Molla Pənah Vaqifin yaradıcılığı Məhəmməd Füzulinin "Şikayətnamə"sinin yekunu, Qasım bəy Zakir şeirinin başlanğıcıdır. Böyük Azərbaycan yazıçısı Mirzə Fətəli Axundzadə həm Molla Pənah Vaqifin və həm də Qasım bəy Zakirin yaradıcılığına yüksək qiymət vermişdir.

Dövlət xadimi kimi də Molla Pənah Vaqif Azərbaycan tarixində və xalqımızın taleyində mühüm xidmətlər göstərmişdir. O, Qarabağ xanlığının Baş vəziri kimi Şuşa şəhərinin müdafiə qalasının tikilməsinə böyük diqqət və əmək sərf etmişdir. Vaqif Qarabağ xanlığının xarici siyasətinin yenidən qurulması sahəsində həyata keçirdiyi düşünülmüş tədbirlərlə geniş mənada Azərbaycanın siyasi xəttinin ölkə reallıqlarına və milli mənafelərə doğru istiqamətləndirilməsi sahəsində mühüm rol oynamışdır. Tarixi hadisələrin sonrakı gedişatı Molla Pənah Vaqifin tutduğu yolun zəruri olduğunu göstərmişdir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev 1984-cü ildə Şuşa şəhərində Molla Pənah Vaqifə məqbərə ucaltmaqla sovet rejimi tərəfindən məkrli şəkildə süni beynəlmiləlçilik siyasətinin həyata keçirildiyi Qarabağa Azərbaycan möhürü vurmuşdur.

Müzəffər Ali Baş Komandanımız İlham Əliyev Molla Pənah Vaqifin ermənilər tərəfindən dağıdılmış məqbərəsini bərpa edərək, bütün əzəməti ilə yenidən həyata qaytarmaqla böyük sənətkara Azad Qarabağda möhtşəm bir abidə ucaltmışdır.

Yenidən və daha böyük miqyasda keçirilməsinə başlanan 1982-ci ildə əsası qoyulmuş Vaqif Poeziya Günləri Prezident İlham Əliyevin dönmədən və uğurla həyata keçirdiyi Böyük Qayıdış hərəkatının şeir-sənət dili ilə ifadə olunan təntənəsidir.

Böyük Qayıdış Azərbaycanın Zəfər Epoxasının baş qəhrəmanıdır.

İlk dəfə tam ərazi bütövlüyü şəraitində Vaqifin məqbərəsi önündə keçirilən Poeziya Günləri isə müstəqil Azərbaycan dövlətinin Bütövlük və Birlik, Qalibiyyət və Vətənpərvərlik dərsləri kimi mühüm əhəmiyyətə malikdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanın Zəfər Epoxasının və Qalibiyyət Epopeyasının qüdrətli yaradıcısıdır.

Prezident İlham Əliyev Dəmir Yumruqlu və Zəfər Bayraqlı böyük dövlət xadimidir.

Molla Pənah Vaqifin məqbərəsi önündə 2024-cü ildə keçirilən Poeziya Günləri Azərbaycan Yazıçılar Birliyinin 90 illiyi ərəfəsində xalq şeiri ənənələri və xalq həyatının tərənnümü əsasında ədəbi məktəb yaratmış böyük sənətkarın ölməz sənəti qarşısında məsuliyyətli bir ədəbiyyat hesabıdır.

Vaqif Poeziya Günləri Böyük Qayıdışın parolu, Böyük Zəfərin poetik manifestidir.

Vaqif Poeziya Günləri möhtəşəm ədəbiyyat və incəsənət bayramıdır.

## Nəticə / *Conclusion*

Ona görə də bütün mənalarda böyük əhəmiyyətə malik olan Vaqif Poeziya Günlərini hər il yüksək səviyyədə təşkil edən Heydər Əliyev Fonduna, Mədəniyyət Nazirliyinə, Yazıçılar Birliyinə minnətdarlığımızı bildirir, burada şeir-sənət hesabatı verən yazçı və şairlərə daha böyük uğurlar arzulayıram.

## Ədəbiyyat / *References*

1. Molla Pənah Vaqif. Əsərləri (tərtib edən: Həmid Araslı). – Bakı: Şərq-Qərb, 2004. – s.113.

## Слово о Молла Панах Вагифе и Днях поэзии Вагифа

**Иса Габиббейли**
Академик
Президент Национальной Академии наук Азербайджана
E-mail: isa.habibbeyli@science.az

**Резюме.** Нелёгкая жизнь, обширное творчество и государственная деятельность выдающегося азербайджанского поэта и мудрого политика Молла Панах Вагифа составляет особый этап в развитии национальной литературы и истории нашей страны. Молла Панах Вагиф вошёл в азербайджанскую литературу как новатор, вернее, как поэт-реформатор. Благодаря именно Молла Панаху в существующей в азербайджанской литературе произошёл переход от многовековой традиции размера везн в классической романтической лирике к новому реалистическому виду поэзии. Богатое наследие Вагифа способствовало созданию новаторских для азербайджанской литературы средств с точки зрения ритма и жанра, языка и стиля, художественного изображения и нового отличающегося направления в истории нашей литературы. Новому обращению к поэтическому искусству Молла Панах Вагифа в исследовании жизни и творчества, выдающихся литературных личностей в свете азербайджанских идеалов в научном и литературном мире, послужило Великое Возвращение.
В статье говорится, помимо творчества М.П.Вагифа, о проведении Дней поэзии Вагифа снова у него на Родине – культурной столице Шуше, в музейном комплексе мавзолея Молла Панах Вагифа, реставрированного на средства Фонда Гейдара Алиева.
**Ключевые слова:** Великое Возвращение, Молла Панах Вагиф, азербайджанская литература, Дни поэзии Вагифа